## DİQQƏT!

**Əziz şagirdlər.**

Açıq tipli sualların cavablarını kağızda qaralayarkən nəzərə alın ki,

1. *Cavablar soldan sağa doğru qaralanmalıdır. Məsələn sualın cavabı "34"-dürsə, bu, cavab kağızında aşağıdakı kimi qaralanmalıdır.*




2. *Seçim (doğru və ya yanlış olanları seçin) və xronoloji ardıcıllıq tipli suallarda "vergül" dairəsi əsla qaralanmamalıdır. Məsələn sualın cavabı 1,3,5-dirsə, bu, cavab kağızında aşağıdakı kimi qaralanmalıdır.*




3. *Bir sütunda sadəcə 1 dairə qaralana bilər. Məsələn sualın cavabı 27-dirsə, bu, cavab kağızında aşağıdakı kimi qaralanmalıdır.*




## AZƏRBAYCAN DİLİ

**1.** Uyğunluğu müəyyən edin.







**2.** ***Yanlış*** cavabı göstərin.




**3.** Eyniköklü sözlərə aid ***məntiqi*** ardıcıllığı davam etdirin.

*a. düzgünlük, düzülmək, ...?*

*b. üzülmək, üzücü , ...?*

*c. bağban, bağça, .....?*

A) a-düzənlik, b-üzləmək, c-bağla

B) a-düzlük , b-üzülmək, c-bağlı

C) a-düzdürmək , b-üzgün, c-bağlıq

D) a-düzəlmək , b-üzləşmək, c-bağlandı

E) a-düzəngah , b-üzgüçü, c-bağdakı

**4.** Verilən xüsusiyyətlərə uyğun gələn neçə söz var?
1. Mürəkkəbdir.
2. Tərəflərindən biri quruluşca düzəltmədir.
3. Tələffüzü fərqlənir.

*bər-bəzək, susəpən, eniş-yoxuş, tör-töküntü, döşəküzü əzab-əziyyət, böyürtkən, qohum-qardaş, əzgil*

A) 1 B) 4 C) 5 D) 3 E) 2

**5.** Neçə sözün kökü bir cür yazılan şəkilçi kimi də işlənə bilir?
*gərginlik, dağlamaq, sazdakı, yoxuşluq, daşlıq, qumsal, dinclik, danlaq*

A) 2 B) 3 C) 4 D) 5 E) 6

**6.** Sözlərdən yalnız birinin leksik mənası düzgün verilmişdir.
A) xof- az vaxt, az müddət
B) qissə - kədər, qəm
C) natürmort - təsviri incəsənətdə təbiət mənzərəsinin rəsmi
D) qahmar - ətraf, dövrə, yan-yörə
E) dəsgah - bir işin təşkili üçün lazım olan əşyaların məcmusu

**7.** Omonim frazeoloji birləşmələrlə bağlı uyğunluq hansı bənddə ***pozulmuşdur?***

| | |
|---|---|
| A) can vermək | Yaralı quş can verir. |
| | Yağış cansız səhralara can verir. |
| B) Üz vermək | Üz verirsən, astar istəyir. |
| | Stansiyada qəza hadisəsi üz verib. |
| C) Ürəyi yanmaq | Paşa Qəribin ağlamağını görüb ürəyi yandı. |
| | Su ver, qızım, ürəyim yanır. |
| D) Dili qurumaq | Susuzluqdan adamların dili qurudu. |
| | Heyrətdən Səlimin dili qurudu. |
| E) Söz vermək | Eldar dərslərini oxuyacağına söz verdi. |
| | Tədbirdə aparıcı alimə söz verdi. |

**8.** Tərkibində yalnız bir saiti uzanan neçə söz işlənmişdir?
*tabeli, malikanə, qafiyə, dövrə, lövhə, cərrahiyyə, musiqi, ovlamaq, abi-həyat*

A) 5 B) 7 C) 4 D) 6 E) 3

**9.** Hecalara düzgün ***ayrılmamış*** sözlər hansılardır?

| | |
|---|---|
| a. kək-li-ko-tu | e. mü-rək-kəb |
| b. də-və-qu-şu | ə. ə-lüz-yu-yan |
| c. Kor-oğ-lu | f. Cə-li-la-bad |
| ç. dün-ya-gör-ü-şü | g. də-rə-o-tu |
| d. sen-tyabr | ğ. çay-ti-ka-nı |

A) a,c,ç,f,g B) a,ç,ə,f C) b,d,ç, ə
D) c,d,ə,f,ğ E) c,ç,d,ə

**10.** Nümunədə verilmiş sözlərin vurğusu ilə aşağıdakı hansı sözlərin vurğusu üst-üstə düşür?
Kəpənək – esse – dünənkilər

A) kainat- maşın- Azərbaycan
B) səadət – bayaq – ürəkaçan
C) ailə- opera – dünyagörüşü
D) əhali – Babək – qəhrəmancasına
E) ovçuluq – ağbalıq - ədəbiyyat

**11.** Sözlər arasındakı fərqli məqamların sayını nəzərə alaraq variantlara görə uyğunlaşdırın.

| | |
|---|---|
| 1. teorem | a. xətkeşlər |
| 2. müttəfiq | b. sehrləmək |
| 3. səhmdar | c. neftçilik |
| 4. igidlikdir | d. aidlik |

A) 1-d, 2-b, 3-a, 4-c B) 1-b, 2-a, 3-c, 4-d
C) 1-c, 2-a, 3-d, 4-b D) 1-a, 2-b, 3-c, 4-d
E) 1-b, 2-c, 3-a, 4-d

**12.** Tərkibində [n] səsinin iştirak etdiyi, yalnız incə saitli sözlərdən ibarət cümləni müəyyənləşdirin.
A) Bizə zənbil-zənbil meyvələr gəlir.
B) Gözlə görməsə də, dərk edir.
C) Şimşəyin işığı hər yeri nura qərq etmişdi.
D) Sünbüllər əl-ələ verib səhəri gözləyirdilər
E) Məktəblilər son dərsi səbirsizliklə gözləyirdilər.

**13.** Boş xanalara hansı sözlər yazıla bilər?

| | |
|---|---|
| boş | dolu |
| şit | ? |

| | |
|---|---|
| bikef | şad |
| enli | ? |

A) duzsuz, qısa B) yağlı, geniş C) şor, dar
D) acı, nazik E) şirin, uzun

**14.** Hansı sözlərdə nöqtələrin yerinə incə, qapalı, dodaqlanan sait yazılmalıdır?
1. müh...m 2. müh...t 3. mürş...d
4. müs...bət 5. müşt...k 6. müşk...l
A) 1, 5, 6 B) 2, 3, 4 C) 2, 4, 6
D) 1, 2, 3 E) 3, 5, 6

**15.** *"Göyün üzü birdən-birə <u>tutqunlaşdı</u>"*cümləsində altından xətt çəkilmiş sözün tərkibinə görə təhlilinə aid sxemə uyğun gələn sözlər hansılardır?
1. yaşadır 2. örtüyündən 3. düşüncəlidir
4. dinlənildi 5. qoruqdadır
A) 2,4,5 B) 1,3,4 C) 2,3,4
D)1,2,5 E) 2,3,5

**16.** *"Lovğalanmaq"* sözünün fonetik təhlilinə aid hansı fikirlər ***səhvdir***?
1. Sözdə işlənmiş 3 samitin qarşılığı vardır.
2. Ahəng qanununa tabedir.
3. Vurğusu sonuncu hecaya düşür.
4. Səs və hərf tərkibi eynidir.
5. Açıq hecaların sayı qapalı hecalardan çoxdur.
A) 1,4,5 B) 1,3,4 C) 2,5 D) 2,3 E) 1,2,4

**17.** Aşağıdakı cümlələrdə *"söz"* sözünün işlənmə ardıcıllığını müəyyən edin.

*Leksik şəkilçilər sözdüzəldici şəkilçilərdir.*
*Yolçular tezdən yola düşmək üçün sözləşdilər.*
*Sözünü deyib qurtarmamış alqış səsləri yüksəldi.*
*Uşaqlar dərslərini yaxşı oxuyacaqlarına söz verdilər.*

1. Yalnız qrammatik şəkilçi qəbul etmişdir.
2. Mürəkkəb sözün yaranmasında iştirak etmişdir.
3. Düzəltmə sözün kökündür.
4. Frazeoloji birləşmənin tərkibində işlənmişdir.

A) 1, 2, 3, 4 B) 2, 3, 1, 4 C) 3, 2, 4, 1
D) 2, 1, 4, 3 E) 4, 1, 3, 2

**18.** Verilənlərdən neçəsi həm arxaizm, həm də ümumişlək söz kimi işlənə bilər?
*güz, batman, arı, dinar, dərnək, yazı, tanıq, əsən, donluq, yağı, gümrah*
A) 5 B) 6 C) 4 D) 3 E) 7

**19.** Omonimlərin məna taylarının mənsub olduğu nitq hissələrini tamamlayın.

1. qovaq < isim / ..........
2. tağ < ........ / isim
3. sürü < isim / ..........
4. yad < ......... / sifət

A) 1-feil, 2-isim, 3-feil, 4-isim
B) 1-sifət, 2-isim, 3-isim, 4-isim
C) 1-isim, 2-sifət, 3-isim, 4-sifət
D) 1-feil, 2-sifət, 3-isim, 4-sifət
E) 1-isim, 2-isim, 3-feil, 4-isim

**20.** Yalnız çoxmənalı söz kimi işlənən sözlərdir:
1. məktəb 2. bel 3. acı
4. quru 5. diş 6. kağız
A) 1, 2, 5 B) 2, 4, 6 C) 3, 4, 5
D) 3, 6 E) 1, 5, 6

**21-25-ci suallar mətnə əsasən həll ediləcək.**

*Böyük İskəndər dünyadan köç edəndə ətrafında olan saray adamlarına bir vəsiyyətnamə verdi. Tapşırdı ki, vəsiyyətnaməni o, öləndən sonra açsınlar.*

*İskəndər gözlərini dünyaya yumdu. Vəsiyyətnamə açıldı və oxundu. Ancaq saray adamları daxil olmaqla heç kim bu vəsiyyətnamədən heç nə baş açmadı.*

*Nəhayət, saray adamları əlacsız qalıb İskəndərin müəllimini çağırdılar. Vəsiyyətnaməni ona verdilər. O, vəsiyyətnaməni diqqətlə oxudu. Vəsiyyətnamədə bu sözlər yazılmışdı: "Mən öləndə cənazəmin qabağına silahlı əsgərlərimi düzün, sol tərəfdə var-dövlətli əyan-əşrəfi düzün. Cənazəmin arxa tərəfində göz yaşları ilə məni təqib edən kasıbları düzün. Əllərimi tabutdan eşiyə qoyun, sol əlimə bir qədər qızıl qoyub bağlayın, sağ əlim isə boş qalsın.*

*Saray adamları İskəndərin müəllimindən soruşdular:*

*-İskəndər bununla nə demək istəmişdi?*

*İskəndərin müəllimi cavab verdi:*

*-İskəndər demək istəyib ki, bu qədər ordu ilə dünyanı fəth elədim. Dünyanın var-dövləti əlimdə idi. Amma bax, indi dünyadan əliboş gedirəm.*

**21.** Mətnə əsasən uyğunluğu müəyyən edin.

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1.Vəsiyyətnaməni ilk dəfə oxuyan İskəndərin müəllimi oldu.<br>2. İskəndər bütün var-dövlətini müəlliminə vəsiyyət etdi.<br>3. Saray adamları əlacsız qaldıqları üçün İskəndərin müəllimini çağırdılar. | 4. Dünyanın var-dövləti əlində olan İskəndər dünyadan əliboş getdi.<br>5. İskəndər vəsiyyətnaməni müəlliminə verdi.<br>6. İskəndərin müəllimi vəsiyyətnamədən heç nə baş açmadı. |

A) 1, 4, 5 B) 2, 3,5 C) 1, 2, 6
D) 3, 5, 6 E) 1, 3, 4

**22.** Mətndə hansı sözlə başlayan cümlədə düzəltmə söz **işlənməmişdir?**
A) Nəhayət B) O C) Mən
D) Əllərimi E) Saray

**23.** Mətnin ideyasına uyğun gələn fikri müəyyən edin.
A) Dünya beş gündür, beşi də qara.
B) Var-dövlət tükənər, elm tükənməz.
C) Dünya malı dünyada qalacaq.
D) Hər işin sonuna baxarlar.
E) Dövlət bir il gedər, töhmət min il.

**24.** Mətnlə bağlı ***səhv*** fikri seçin.
A) Mətndə ümumişlək sözlər üstünlük təşkil edir.
B) Mətndə yalnız başlanğıc formada olan sözlər də var.
C) Mətndə sinonimi olmayan sözlər işlənməmişdir.
D) Kökləri isim və feil olan omonim söz var.
E) Sözlərin quruluşca hər üç növünə aid nümunələr işlənmişdir.

**25.** Mətndə çərçivə daxilində verilmiş ifadə ilə bağlı doğru fikirləri seçin.
1. Məcazi mənadadır.
2. "Düşünmək" sözü ilə əvəz edilə bilər.
3. Sabit söz birləşməsi deyil.
4. "Dərk etməmək" mənasındadır.
5. Həqiqi mənada işlənib.

A) 2, 4, 5 B) 1, 3 C) 1, 3, 5
D) 2, 3 E) 1, 4

## İNGİLİS DİLİ

**26.** Make up a sentence.

*1. are* *2. in his room* *3. many windows*
*4. very light* *5. there* *6. and it's*

A) 1, 5, 3, 6, 2, 4
B) 5, 1, 3, 2, 6, 4
C) 5, 1, 4, 2, 6, 3
D) 3, 1, 6, 2, 5, 4
E) 6, 4, 2, 1, 5, 3

**27.** Choose the correct variant.

1. a traffic rule
2. an open air
3. little boy
4. a water glass
5. an apple juice
6. police officer

A) 1, 4 B) 3, 5 C) 1, 3, 6 D) 2, 6 E) 2, 4, 5

**28.** Choose the correct pronouns to the underlined words.

*You know <u>the difference</u> between <u>your friends and me</u>.*

A) its, they B) it, them C) it, us
D) us, yours E) them, you

**29.** Translate the sentence into English.

*Mənim bacım oğlu bir neçə şeiri əzbər bilir.*

A) My niece knows some poems by heart.
B) My nephew does know few poems by heart.
C) My cousin is know some poems by heart.
D) My niece knows all poems by heart.
E) My nephew knows some poems by heart.

**30.** Choose the correct variant.

*I … late in the morning.*

A) not get up always
B) don't usually get up
C) amn't often
D) never am
E) am never get up

**31.** Choose the **incorrect / correct** variant.

A) many news / much news programmes
B) a clothes shop / police car
C) many pieces of information / much sea food
D) a lot of piece of chalk / many slices of butter
E) many programme / much silk dresses

**32.** Choose the correct variant according to Venn diagram.




I *Jeyhun always likes ... cheese for his breakfast.*
II *Jeyhun's niece has got many ... shoes.*

a. two pieces of b. some c. —
d. pairs of e. a pair of

A) I e; II c, d; III b
B) I b; II d, e; III c
C) I b, c; II a, e; III d
D) I a; II e; III b, c
E) I a, b; II d; III c

**33.** Where is the verb *"are"* ***<u>incorrect</u>***?

A) The butter and cheese … in the fridge.
B) There … butter and cheese in the fridge.
C) Sheep … near the stable.
D) There … no deer in this forest.
E) There … not any deer in this forest.

**34.** Match the correct variants.

1. *… your brother got a car?* *a. does*
2. *… they have a rubbish bin?* *b. has*
3. *Ayla never … shopping.* *c. have*
4. *Do the children … any exercises?* *d. do*

A) 1–a; 2–d; 3–b; 4–c
B) 1–c; 2–a; 3–b; 4–d
C) 1–b; 2–d; 3–a; 4–c
D) 1–b; 2–c; 3–a; 4–d
E) 1–a; 2–c; 3–d; 4–b

**35.** Choose the correct pronouns.

*... cake over there is really tasty*
*and ... for... and ... sister.*

A) That, its, you, your B) This, it`s, you, my
C) That, it`s, her, her D) It, its, your, her
E) Their, its, me, my

**36.** How many variants are correct?

**compound** ? **countable**

*‹‹ homework, draughts, seatbelts, waterspout, football, bookstore, policewoman, foreigner ››*

A) 2 B) 4 C) 1 D) 0 E) 5

**37.** Complete with the logically correct variant.

clothes - glasses - scissors - **?**

A) fish B) leaves C) news
D) chiefs E) tights

**38.** Match the words with their translations.

*1. remember* *a. qeyd etmək*
*2. take care of* *b. oxşamaq*
*3. celebrate* *c. qayğısına qalmaq*
*4. look like* *d. xatırlamaq*

A) 1-d, 2-c, 3-a, 4-b B) 1-d, 2-b, 3-a, 4-c
C) 1-a, 2-d, 3-b, 4-c D) 1-b, 2-c, 3-a, 4-d
E) 1-d, 2-b, 3-c, 4-a

**39.** Match the correct variants.

*1. Would you like … soup?*
*2. I know, ... stories don't have a happy end.*
*3. Come and see us … time you want.*
*4. He never does … work.*

a. some b. any c. a little d. much e. no

A) 1-a; 2-b; 3-d; 4-e B) 1-a; 2-e; 3-b; 4-c
C) 1-d; 2-b; 3-e; 4-a D) 1-c; 2-d; 3-a; 4-b
E) 1-c; 2-a; 3-b; 4-d

**40.** Choose the correct articles.

*... London is not in … USA, it's the capital city of ... Great Britain.*

A) –, the, – B) a, the, a C) –, the, the
D) –, –, – E) the, the, the

**41.** Choose the correct nouns in the Possessive Case.

... summer-house is very beautiful with flowers.

*1. Those womens'* *2. These actress's daughters'*
*3. Ali and Sona's* *4. The Hajiyevs'*
*5. Nigar's friend's* *6. Nazim's and Aydan's*

A) 1,2,5 B) 2,3,4 C) 3,4,5 D) 3,5,6 E) 1,4,6

**42.** Match the correct articles with figures.

1. *Is that … furniture shop?*
2. *Is that … furniture shop yours?*
3. *Maryam's … first child of the family.*
4. *Today is Maryam's … first day at work.*

△ a □ — ● the

A) 1△ ; 2□ ; 3● ; 4□ B) 1△ ; 2△ ; 3● ; 4●
C) 1□ ; 2□ ; 3□ ; 4□ D) 1□ ; 2□ ; 3● ; 4●
E) 1● ; 2△ ; 3△ ; 4●

**43.** Choose the correct variant.

1. *Is your cousin's office near here? – Yes, he is.*
2. *Are my brother and I in the same team? – No, you aren't.*
3. *Is your name Neriman? – Yes, it is.*
4. *Are you afraid of dogs? – No, I amn't.*
5. *Are my cousins' money in that bag? – No, they aren't.*

A) 1, 4 B) 4, 5 C) 2, 3 D) 1, 3 E) 2, 5

**44.** How many variants are correct?

*My sister … a baby.*

*1. doesn't* *2. is* *3. likes*
*4. likes to play with* *5. looks like*

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**45.** How many nouns are uncountable?

◊ travel ◊ trip ◊ music ◊ song

◊ wool ◊ luggage ◊ wind ◊ language

A) 2 B) 4 C) all of them D) 1 E) 0

**46.** Choose the correct question.




A) Is the queen live here?
B) Does the stewardess angry with me?
C) Is she interested in music?
D) Does your niece have a good time?
E) Does her nephew take care of animals?

**47.** Choose the logically correct words.

*We have three little ... cats in our garden. My little brother loves them very much and he … them milk every day. He likes … with the baby cats a lot.*

A) lovely, pats, jumping
B) friendly, gives, to discuss
C) lovely, gives, playing
D) pretty, visits, sailing
E) boring, visits, to sleep

**48.** Choose the correct sentences with the noun in the Genitive Case.

1. *The scarf of the colour is red.*
2. *What's the name of that street over there?*
3. *My brother's handmade gift is dear for me.*
4. *Today's their first day at work.*
5. *Todays' news is very interesting.*
6. *Let's go to Ali's.*

A) 2,5,6 B) 1,3,4 C) 1,4,5 D) 1,2,4 E) 2,3,6

***Read the passage and answer the questions 49 – 50.***

*Nazli and Lale are sisters. They live in Baku with their parents. They are not schoolgirls. Nazli is an English teacher. Her sister is interested in chemistry (kimya) and she works at the oil company. They both are single and live with their parents. Nazli goes to work by car, she likes to drive. Sometimes she takes her sister after work and they go home together. After work they have a rest, watch TV or go for a walk in the park with their family. At weekends they try to help their mother in her housework. They love their family and friends very much.*

**49.** Choose the title for the text.

A) Nazli's rest B) Oil company
C) Schoolgirls D) Two sisters
E) A friend of mine

**50.** Choose the correct sentence from the text.

A) The sisters are not married.
B) Nazli and Lale sometimes go to work together.
C) Lale is an English teacher at the company.
D) The sisters help their father at weekends.
E) The sisters' family isn't in Baku.

## RİYAZİYYAT

**51.** İki ədəddən hər birini 5 dəfə artırsaq, onda cəm 650 olar. Əgər böyük ədədi 50 vahid artırsaq , onda alınan ədədlə kiçik ədədin fərqi böyük ədədə bərabər olar. Kiçik ədədin kvadratını tapın

A) 6400 B) 3600 C) 4900
D) 2500 E) 8100

**52.** a; b; c; d ardıcıl cüt ədədlər və $(b-a)\cdot(d-c)+(c-b)\cdot(d-a)=X$ olarsa, sahəsi $X\ sm^2$ olan kvadratın perimetrini tapın

A) 4 sm B) 8 sm C) 16 sm
D) 20 sm E) 24 sm

**53.** Tənliyin kökünün rəqəmləri cəmini tapın

$$\frac{(x-5)\cdot(x-5)\cdot(x-5)}{1-0{,}4}=360$$

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**54.** Hər biri özündən əvvəlkindən 3 dəfə böyük olan dörd ədədin cəmi 280 olarsa, bu ədədlərdən ən böyüyü ilə ən kiçiyinin cəmini rum rəqəmləri ilə yazın

A) CXXII B) CXIII C) CXCVI
D) CXXIII E) CII

**55.** Sahəsi 729 ar olan kvadratı şəkildəki kimi 3 bərabər hissəyə bölsək və alınan düzbucaqlıları şəkildəki kimi üst-üstə gəlməməklə birləşdirsək, alınan fiqurun perimetrini tapın.



A) 18 m B) 27 m C) 180 m
D) 1800 m E) 270 m

**56.** $\overline{573ab}$ ədədinin onluqlarının sayı yüzlüklərinin sayından 5161 çox, təkliklərinin sayından 51614 azdır.$a\cdot b-(a+b)$ ifadəsinin qiymətini tapın.

A) 12 B) 16 C) 18 D) 20 E) 30

**57.** Rəsm, musiqi və ya idmanın ən az biri ilə məşğul olan 42 nəfərlik qrupda rəsmlə məşğul olan 15, musiqi ilə məşğul olan 21, idmanla məşğul olan 18 nəfər var.Rəsm və musiqi ilə məşğul olan 6, rəsm və idmanla məşğul olan 4, hər 3-ü ilə məşğul olan 3 nəfər var. Yalnız musiqi və idmanla məşğul olan neçə nəfər var?

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**58.** $156:(3x+18)=26:7{,}4$ tənliyin kökünün tam hissəsini tapın.

A) 12 B) 11 C) 10 D) 9 E) 8

**59.** $\frac{1}{5} < \frac{2}{2x-5} < \frac{1}{3}$ bərabərsizliyini ödəyən natural ədədlərin cəmini tapın

A) 13 B) 11 C) 18 D) 7 E) 15

**60.** 7,3264 ədədini yüzdə birlərə qədər yuvarlaqlaşdırsaq, ədəd nə qədər artar?

A) 0,0264 B) 0,0064 C) 0,0736
D) 0,0036 E) 0,01

**61.** Onluq kəsrin vergülünü 2 rəqəm sağa çəkib, alınan ədədi 4-ə bölsək, ədəd necə dəyişər?

A) 400 dəfə artar B) 8 dəfə artar
C) 25 dəfə artar D) 400 dəfə azalar
E) 25 dəfə azalar

**62.** Natural ədədin həm kvadratı, həm də kubu şəklində göstərilə bilən ikirəqəmli ədədin rəqəmləri cəmi ilə rəqəmləri fərqinin hasilini tapın.

A) 10 B) 20 C) 32 D) 46 E) 28

**63.** Uzunluğu 24 m, eni 15 m olan həyətə hər birinin ölçüsü 25 sm × 25 sm olan metlax döşənir. Metlaxlar hərəsində 30 ədəd olmaqla qutularda satılır. 1 belə qutunun qiyməti 23,5 man olarsa, bütün həyətə metlax döşəmək üçün nə qədər pul lazımdır?

A) 4512 man B) 4432 man C) 4412 man
D) 4362 man E) 4678 man

**64.** $\frac{n+3}{n} = 1{,}075$ olarsa, n-in rəqəmləri cəmini tapın.

A) 2 B) 3 C) 4 D) 5 E) 6

**65.** Məmur normal rejimdə gündə 8 saat olmaqla həftənin 5 günü işləyir və hər saatı üçün 6,25 manat alır.Əgər məmur 8 saatdan artıq işləsə, hər əlavə saat üçün normal saatlıq maaşının 2 qatı qədər maaş alır. Fövqəladə vəziyyətlə əlaqədar növbəti 5 günlük iş həftəsində hər gün 11 saat işləyirsə,həmin həftə məmur nə qədər maaş alar?

A) 462,5 B) 448,4 C) 464,9
D) 437,5 E) 428,6

**66.** Hesablayın:

$$48{,}9 \cdot 18 + 21{,}1 \cdot 18 + 91{,}1 \cdot 12 - 21{,}1 \cdot 12$$

A) 4200 B) 4800 C) 2100
D) 2300 E) 1800

**67.** 1 oyuncağın maya dəyəri 4,75 manatdır. Satış qiyməti 8,35 man olaraq müəyyənləşdirilən bu oyuncaqlar daha sonra kampaniya çərçivəsində 2 alana 1 hədiyyə şəklində satılmışdır. Kampanıya başlayandan bitənə qədər mağazada bu oyuncaqların sayı 60 ədəd azalmışsa, mağaza həmin oyuncaqların satışından nə qədər gəlir əldə etmişdır?

A) 53 man B) 49 man C) 45 man
D) 40 man E) 37 man

**68.** $\overline{9a83b}$ ədədi 18-ə bölünür, 4-ə böldükdə qalıqda 2 alınır. a-nın ala biləcəyi qiymətlərin cəmini tapın.

A) 18 B) 20 C) 19 D) 17 E) 12

**69.** Qayıq çayın axınına qarşı 5 saata 86 km yol gedir. Çayın sürəti $4\frac{3}{4}$ km/saat olarsa, qayığın axın istiqamətində sürətini tapın.

A) 21,95 km/saat B) 13,65 km/saat
C) 28,4 km/saat D) 25,7 km/saat
E) 26,7 km/saat

**70.** $3 < x < 4$ şərtini ödəyən və onluq işarələrinin sayı 3-ü aşmayan ən böyük onluq kəsrlə $6 < y < 8$ şərtini ödəyən və onluq işarələrinin sayı 2-ni aşmayan ən kiçik onluq kəsrin cəmini tapın.

A) 10,009 B) 10,011 C) 10,991
D) 10 E) 10,01

**71.** A çoxluğu 5-ə bölünən natural ədədlər çoxluğu , B çoxluğu 15-ə bölünən natural ədədlər çoxluğu, C 20-yə bölünən natural ədədlər çoxluğu olarsa, A, B və C çoxluqlarının Venn diaqramı ilə təsviri hansı variantda düzgün verilmişdir?




**72.** Təkliflərdən hansıları həmişə doğrudur?

1. Vuruqlardan hər biri verilmiş bir ədədə bölünmürsə, hasil də həmin ədədə bölünmür.
2. Bölünən və bölənin hər ikisini eyni dəfə artırsaq, qismət dəyişməz.
3. 6-ya bölünən natural ədədlər çoxluğu ilə 4-ə bölünən natural ədədlər çoxluğunun kəsişməsi 24-ə bölünən natural ədədlər çoxluğudur.
4. Bir bölmə əməlində bölünən, bölən, qismətin hasili bölünənin kvadratına bərabərdir.
5. Verilmiş ədədin qalıqsız bölündüyü natural ədədə həmin ədədin bölünəni deyilir.
6. Üç ardıcıl cüt ədədin cəmi 8-ə bölünür.

**73.** İki qutuda cəmi 170 şar var.1-ci qutudakı şarların $\frac{2}{5}$ hissəsi, 2-ci qutudakı şarların $\frac{1}{4}$ hissəsi, bütün şarların $\frac{28}{85}$ hissəsi yaşıldır. 1-ci qutudakı yaşıl şarlar 2-ci qutudakı yaşıl şarlardan nə qədər çoxdur?

**74.** a, b, c natural ədədlər, $c < b < a$ a+b:c =16 olarsa , a+b+c-nin ən böyük qiymətini tapın.

**75.** Uyğunluğu müəyyən edin:

1. (x-6):29 = 10 (q. 7)
2. 1218:(x+9) = 20 (q. x-12)
3. (2x- 6):23 = 5 (q.9)

a. Tənliyin kökünün rəqəmləri cəmi 6-dır
b. Tənliyin kökünün rəqəmləri cəmi 11-dir.
c. Tənliyin kökünün rəqəmləri cəmi 5-dir.
d. Tənliyin kökü ən kiçik üçrəqəmli ədəddən 203 vahid çoxdur.
e. Tənliyin kökünün ən kiçik və ən böyük natural bölənlərinin cəmi 66-dır.

## TARİX

**76.** Sxemi doğru tamamlayan cavabı müəyyən edin




A) Bəzz qalası B) Qoşaminarə
C) Qeysəriyyə bazarı D) Şəki xan sarayı
E) Gülüstan qalası

**77.** 15-ci yüzilliyin sonları ilə 18-ci yüzilliyin ortaları Azərbaycan tarixinə aid ümumi cəhət:

A) ölkə torpaqlarının böyük bir hissəsinin Səfəvilər dövlətinin tərkibində olması
B) ayrı-ayrı hakimlərin özbaşınalığı və bir-birləri ilə müharibələri
C) xanlıqlar arasında gedən fasiləsiz müharibələr
D) ölkə torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi
E) vahid və mərkəzləşdirilmiş dövlətin xarici hücumlar nəticəsində zəifləməsi

**78.** – Şeyx Səfi məqbərəsi inşa edilmişdi
– 12-ci yüzillikdə paytaxt şəhəri idi
Göstərilənlərdən heç birinin aid olmadığı şəhəri müəyyən edin:




A) 1 B) 2 C) 4 D) 3 E) 5

**79.** Atropatın fəaliyyətlərinə ***aid deyil***:
A) yadelli işğalına qarşı mübarizə aparması
B) Azərbaycanın Araz çayından cənubdakı torpaqlarını hakimiyyəti altına alması
C) yeni dövlətin əsasını qoyması
D) e.ə. birinci minilliyin ikinci yarısında hakimiyyətə gəlməsi
E) sasanilərin hücumuna qarşı mübarizə aparması

**80.** *"Beləliklə, İrəvan xanlığı Rusiya tərəfindən işğal olundu. Çar hökuməti erməniləri kütləvi şəkildə İrəvana və onun ətrafına köçürdü. Azərbaycan türklərinin ən yaxşı torpaqları ermənilərə verildi."*
Mətndə verilənlərə və dərsliyinizdəki məlumatlara əsasən Çar Rusiyasının, qədimdən bəri Azərbaycan şəhəri olan İrəvana və onun ətrafına erməniləri kütləvi şəkildə köçürməsindəki məqsədini müəyyən edin.
A) İrəvanda Azərbaycan türklərinin sayını artıraraq bu şəhərin etnik tərkibini dəyişmək
B) Azərbaycan və Osmanlı türkləri arasında maneə yaratmaq və onları birləşməyə qoymamaq
C) bütün kəndliləri torpaqla təmin etmək
D) Qacarlar dövləti ilə növbəti müharibəyə hazırlaşmaq
E) İrəvan xanlığını ələ keçirərək digər xanlıqlara gedən yolu açmaq

**81.** Uyğun kəsişmə nöqtələrini müəyyən edin:




A) 1,3 B) 2,4 C) 1,2 D) 3,5 E) 4,5

**82.** Hadisə-nəticə əlaqələrinin doğru verildiyi cavabı müəyyən edin:

| | | |
|---|---|---|
| 1 | Babəkin xürrəmilərə başçılıq etməsi | Xürrəmilər hərəkatının başlaması |
| 2 | İslam dininin Azərbaycanda yayılması | Azərbaycan xalqının təşəkkül prosesinin sürətlənməsi |
| 3 | Monqolların Azərbaycana hücumları | Eldənizlər dövlətinin yaranması |
| 4 | Xilafətin zəifləməsi | Dövlətçilik ənənələrimizin dirçəlməsi |

A) 1,3 B) 2,4 C) 1,4 D) 1,2 E) 3,4

**83.** 12-ci yüzillikdə Azərbaycanda baş ***verməmişdir:***
A) iqtisadiyyatın və mədəniyyətin tənəzzül etməsi
B) müdafiə qalalarının inşa edilməsi
C) yeni paytaxt şəhərlərin yaranması
D) güclü və vahid dövlətin meydana gəlməsi
E) yeni dövlətin yaranması

**84.** - Rus ordusunda polkovnik rütbəsinədək yüksəlmişdi
- Əsərində Azərbaycan və Dağıstan xalqlarının haqsızlıqlara qarşı mübarizəsi göstərilmişdi
- Astronomiya, coğrafiya və digər elmlərlə də məşğul olmuşdu

Göstərilənlər aiddir:
A) Hacı Zeynalabdin Tağıyevə
B) Mirzə Fətəli Axundzadəyə
C) Abbasqulu ağa Bakıxanova
D) Mirzə Kazım bəyə
E) Həsən bəy Zərdabiyə

**85.** 1736-cı ildə:
A) Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu
B) Əfşarlar dövləti süqut etdi
C) Azərbaycan müstəqil xanlıqlara parçalandı
D) Azərbaycan torpaqları xarici işğalçılar tərəfindən bölüşdürüldü
E) Nadir xan Səfəvilər dövlətinin şahı seçildi

**86.** Uyğunluq ***pozulmuşdur***.

A) dövlət himnimizin sözləri aiddir – Əhməd Cavada
B) Şuşada fəaliyyət göstərmişdi – şairə Xurşidbanu Natəvan
C) "Gülüstan" poemasının müəllifidir – Bəxtiyar Vahabzadə
D) "Leyli və Məcnun" operasını yazmışdı – Məhəmməd Füzuli
E) görkəmli generallarımızdan olmuşdur – Səməd bəy Mehmandarov

**87.** Azərbaycan Respublikasının 20-ci yüzilliyin sonları tarixinə aiddir:

A) Nəsrəddin Tusinin 800 illiyinin qeyd olunması
B) Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyəti ilə məşğul olması
C) Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti olması
D) Azıx mağarasının arxeoloqlar tərəfindən kəşf olunması
E) Şamaxı rəsədxanasının fəaliyyətə başlaması

**88.** Aşağıdakılardan neçəsi Azərbaycanda tunc dövrünə aiddir:

1. Kanallar və arxların çəkilməsi
2. Kahinlərin insanlar arasında xüsusi nüfuza sahib olması
3. İlk dəfə metaldan istifadə edilməsi
4. Misdən və tuncdan bəzək əşyalarının hazırlanması
5. Toxa əkinçiliyinin yaranması

A) 4-ü B) 2-i C) 5-i D) 1-i E) 3-ü

**89.** 16-cı yüzillikdə hakimiyyətdə olmuş türk hökmdarları:

1. Şah İsmayıl 2. Sultan Səlim
3. Sultan II Mehmet 4. Uzun Həsən
5. Sultan Süleyman

A) 2,3,5 B) yalnız 1 C) 1,4
D) 1,2,5 E) 2,3,4

**90.** Uyğunluğu müəyyən edin.




A) 1a, 2a B) 1c, 2ab C) 1b, 2c
D) 1ab, 2ab E) 1bc, 2ab

**91.** Sxemə uyğun cavabı müəyyən edin:




A) Nadir şah Əfşar imperyasını süquta uğratması
B) Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirməsi
C) Gürcü çarlığını məğlubiyyətə uğratması
D) Səfəvilər sülaləsinin hakimiyyətini bərpa etməyə çalışması
E) Qarabağ xanlığının əsasını qoyması

**92.** Azərbaycanda Ərəb xilafətinin hakimiyyəti dövründə baş vermişdi:

1. *Bəzz qalasının üsyançıların mərkəzinə çevrilməsi*
2. *Dərbənd qalasının Şirvanşahlar tərəfindən təmir edilməsi*
3. *İslam dininin meydana gəlməsi*
4. *Əhalidən alınan vergilərin artırılması*

A) 2,4 B) 1,3 C) 1,4 D) 2,3 E) 1,2

**93.** Məntiqi ardıcıllığı müəyyən edin:

1. *Birinci Rusiya-Qacarlar müharibəsinin başa çatması*
2. *Çar Rusiyası ilə Qacarlar dövləti arasında sülh müqaviləsinin imzalanması*
3. …………………

A) Azərbaycan torpaqlarının yenidən vahid dövlət halında birləşdirilməsi
B) Azərbaycan torpaqlarının kiçik feodal dövlətlərinə parçalanması
C) Çar Pyotrun Azərbaycan torpaqlarını işğala başlaması
D) Azərbaycan torpaqlarının bir hissəsinin Rusiya tabeliyində qalması
E) Azərbaycanın bütün şimal xanlıqlarının Rusiyanın əsarəti altına düşməsi

**94.** Səfəvi və Ağqoyunlu dövlətlərindən heç birinə aid ***deyil***:
A) şərq ölkələrinə yürüşlər etməsi
B) uğurlu hərbi qələbələr nəticəsində yaranması
C) böyük bir imperiyaya çevrilməsi
D) orta əsrlərin əvvəllərində yaranması
E) Misir Məmlük dövləti ilə həmsərhəd olması

**95.** 19-cu yüzilliyin əvvəllərində adı dəyişdirilərək Yelizavetpol adlandırılmış şəhərimizin ərazisini müasir Azərbaycan xəritəsində müəyyən edin:




A) 2 B) 3 C) 4 D) 5 E) 1

**96.** Verilmiş hadisələrdən hansıların yerlərini dəyişdirdikdə doğru xronoloji ardıcıllıq alınar?

| | |
|---|---|
| 1 | Albaniyanın Xilafətlə diplomatik əlaqələr qurması |
| 2 | Elxanilər dövlətinin yaranması |
| 3 | Eldənizlər dövlətinin yaranması |
| 4 | Şirvanşahlar dövlətinin süqutu |

A) 1⟷3 B) 2⟷3 C) 2⟷4
D) 1⟷4 E) 3⟷4

**97.** "Molla Nəsrəddin" jurnalının nəşr edildiyi Azərbaycan şəhərləri:
*1. Təbriz* *2. Tiflis* *3. Bakı* *4. Tehran*

**98.** Dövlətlərin süqut etmə ardıcıllığını müəyyən edin:
*1. Əfşarlar dövləti* *2. Ağqoyunlu dövləti*
*3. Səfəvilər dövləti* *4. Rəvvadilər dövləti*

**99.** Səfəvilər dövlətinə aiddir:
1. *Osmanlılarla həmsərhəd olması*
2. *Təbriz şəhərinin Ağqoyunluların əlindən alınması*
3. *Torpaqlarının bir hissəsinin Çar Rusiyası tərəfindən işğal edilməsi*
4. *Azərbaycan torpaqlarının ilk dəfə vahid dövlət halında birləşdirilməsi*
5. *Qarabağ bəylərbəyiliyinin onun tərkibində olması*

**100.** Gəncə (1) və Qarabağ (2) xanlıqlarını müqayisə edərək Eyler-Venn diaqramına uyğun cavabları müəyyən edin




a. Şəki xanlığı ilə həmsərhəd idi
b. Çar Rusiyasına qarşı sonadək müharibə aparmışdı
c. Əsası Pənahəli xan tərəfindən qoyulmuşdu
d. Naxçıvan xanlığı ilə həmsərhəd idi